# Ağdam şəhərinin Baş Planının təsdiqlənməsi böyük quruculuq işlərinin başlanğıcıdır

***Ağdam ölkəmizdə iqtisadi potensialının böyüklüyünə görə seçilən rayonlardan biridir. Torpaq sahəsinin 92 faizindən çoxu məhsuldar olan bu rayon, eyni zamanda, güclü sənaye potensialına malikdir. Bu konteksdə həm Ağdam, həm işğaldan azad edilmiş digər ərazilərimizin Baş Planının hazırlanması və artıq Ağdamın Baş Planının təsdiqlənməsi düşməndən təmizlənən ərazilərimizdə böyük quruculuq işlərinin başlanmasından xəbər verir.***



Azad edilmiş torpaqlarda, əslində, bərpa və yenidənqurma işləri bir müddət öncə başlayıb, ancaq Baş Planın təsdiqlənməsi şəhər və rayonlarımızın daha qısa zaman ərzində bərpa və yenidən qurulmasına, bu yerlərdə həyatın daha tez bir zamanda canlanmasına imkan verəcək. Eyni zamanda, həmin torpaqlarda bütün yaşayış məntəqələri "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaına uyğun şəkildə qurulacaq ki, bu da bir vaxtlar əsasən aqrar yöndə tanınan rayonarlarımızda sənayenin inkişafını şərtləndirəcək.

Ağdamda Sənaye Parkının yaradılması da məhz bundan xəbər verir. Nəzərə alsaq ki, sənaye parkına sənaye sektorunun fərqli sahələri üzrə sərmayənin cəlb edilməsi nəzərdə tutulur, bu konteksdə işğaldan azad edilmiş ərazilərimizdə dörd iqtisadi mərkəzin formalaşdırılması həyata keçiriləcək və bu da, sənaye də daxil olmaqla, fərqli sektorların inkişafına əlverişli zəmin yaradacaq.

"Ağıllı şəhər" və "ağıllı kənd" modeli həm kommunal xidmətlərə çıxış imkanlarını artıracaq, həm də sosial xidmətlərə əlçatanlığı genişləndirəcək. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərimizdə qurulan inkişaf modeli sonrakı mərhələdə Azərbaycan iqtisadiyyatına daha böyük töhfə verəcək.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 1 iyun.- S.3.